**İyul, 2025**

# Azərbaycan dili üzrə test

## Təlimat

İmtahan testinin elektron bukleti qarşınızdadır.
Testin maksimal balı 70-dir.
Testi yerinə yetirmək üçün sizə 4 saat vaxt verilir.

**Növbəti səhifəyə keçmək və geri qayıtmaq üçün klaviaturanın üzərində ox işarələri olan klavişlərindən istifadə edə bilərsiniz.**

***Sizə uğurlar arzulayırıq!***

# AZƏRBAYCAN DİLİ (35 BAL)

(1) **1. Vurğunun yerini dəyişməklə mənası dəyişən sözlərin cərgəsini müəyyən edin.**

A) Bildir, orqan, elektrik;

B) Dimdik, damcı, sahil;

C) Esse, kafedra, opera;

D) Motor, qazma, divan.

(1) **2. Sinonimlərlə bağlı hansı fikir düzgün *deyil?***

A) Deyilişi və yazılışına görə fərqli olur;

B) Həmişə bir-birini əvəz edə bilir;

C) Nitqdə yersiz təkrarların qarşısını alır;

D) Eyni nitq hissəsinə aid olur.

(1) **3. Tərkibində 2 leksik və 2 qrammatik şəkilçi işlədilmiş sözü müəyyən edin.**

A) İstəklilərimiz.

B) Sevinəcəklər.

C) Tikintidəyik.

D) Üzümlükdədir.

(1) **4. Hansı cərgədə yalnız mücərrəd mənalı düzəltmə isimlər verilmişdir?**

A) Bolluq, yuxulu, tələbəlik.

B) Duyğusuz, güllük, sevinc.

C) Güvənc, boşluq, duyum.

D) Məqsəd, gözəllik, sadəlik.

(1) **5. Verilmiş cümlələrdə *yaxşı* sözünün qrammatik mənası ilə bağlı ardıcıllığı müəyyən edin.**

*1. Yaxşı, dediyimiz vaxtda görüşərik.*

*2. Sözü deməzdən əvvəl yaxşı fikirləş.*

*3. Yaxşı əməl insanın başını uca edər.*

A) Ədat, sifət, zərf.

B) Ədat, zərf, sifət.

C) Modal söz, ədat, sifət.

D) Modal söz, zərf, sifət.

(1) **6. Hansı cümlə yiyəlik halda olan isimlə başlayır?**

A) Fikrin mənə aydın oldu.

B) Gülün ətri otağı bürümüşdü.

C) Pisin əzablarını birgə çəkirik.

D) Yüzün yarısı əllidir.

(1) **7.** *“Axşamdan əsən külək səhərə yaxın zəiflədi”* **cümləsindəki hər iki feilin ortaq cəhətini müəyyən edin.**

A) İndiki zamandadır, təsirsizdir.

B) Keçmiş zamandadır, sadədir.

C) Təsdiq formasındadır, sadədir.

D) Təsirsizdir, təsdiq formasındadır.

(1) **8. Asılı tərəfi düzəltmə sifətlə ifadə olunmuş ismi birləşməni müəyyən edin.**

A) Ağlayan körpə.

B) Dəyirmi masa.

C) Qoçaq uşaq.

D) Parlaq ulduz.

(1) **9. Rəsmi-işgüzar üsluba aid olan hansı nümunələrdə bəzən obrazlılığa yol verilir?**

A) Bəyanat və manifestlərdə.

B) Fərman və sərəncamlarda.

C) Konstitusiya və qanunlarda.

D) Protokol və müqavilələrdə.

(1) **10. Hansı cümlədə həm vergül, həm də tire işarəsi buraxılmışdır?**

A) Biz dünən yəni bayram axşamı görüşməli idik.

B) Dünən biz bağda xeyli yorulana qədər işlədik.

C) Mən ailəmlə bu binada çox düz on il yaşamışam.

D) O həyəcanla xüsusi bir təşviş hissi ilə danışırdı.

(2) **11. Şagird yazdı:** *İclasda bir sıra məsələ müzakirə olundu***.**

Şagirdin hansı səhvə yol verdiyini müəyyən edin.

Bənzər səhvi etməmək üçün onun nəyi bilməli olduğunu qeyd edin.

(2) **12.** **Şagird yazdı:** *Nəsimi Adına Dilçilik İnstitutu dilçilik sahəsində başlıca elmi-tədqiqat mərkəzi kimi tanınır***.**

Şagirdin hansı səhvə yol verdiyini müəyyən edin.

Bənzər səhvi etməmək üçün onun nəyi bilməli olduğunu qeyd edin.

(4) **13. Sizin məqsədiniz tabeli və tabesiz mürəkkəb cümlələr arasındakı fərqi şagirdlərə izah etməkdir.**

**I –** Tabesiz mürəkkəb cümlə nəyə deyilir? Cavabınızı nümunə ilə əsaslandırın.

**II –** Tabeli mürəkkəb cümlə nəyə deyilir? Cavabınızı nümunə ilə əsaslandırın.

(7) **14. Mətni oxuyun və tapşırıqları yerinə yetirin.**

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı***

Əsrlər boyu Azərbaycan xalqını bir xalq kimi qoruyan bizim mədəniyyətimiz, incəsənətimiz, musiqimiz, xalçaçılıq sənətimiz və digər ənənələrimiz olubdur. Bizim bu sahədəki bütün fəaliyyətimizin əsasında Azərbaycan dili dayanır. Azərbaycan dili bizi bir xalq, millət kimi qoruyub. Əsrlər boyu biz başqa ölkələrin, imperiyaların tərkibində yaşadığımız, müstəqil olmadığımız dövrdə milli dəyərlərimizi, ana dilimizi qoruya, saxlaya bilmişik. Azərbaycan dilinin saflığını qoruya bilmişik. Ona görə bu gün bəzi hallarda görəndə ki, dilimizə xaricdən müdaxilələr edilir və bəzi hallarda bu müdaxilələr Azərbaycanda da dəstək qazanır, bu məni, doğrudan da, çox narahat edir. Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik. Əlbəttə, bizim vətəndaşlar, xüsusilə gənc nəsil nə qədər çox xarici dil bilsələr, o qədər yaxşıdır. Ancaq, ilk növbədə, öz ana dilini bilməlidirlər. Digər tərəfdən, imkan verməməlidirlər ki, ana dilimizə yad kəlmələr daxil olsun. Buna ehtiyac yoxdur. Bəzi ictimai xadimlərin, hökumət üzvlərinin çıxışlarında, bəzi televiziya verilişlərində, Milli Məclisdə eşidirəm ki, kənar kəlmələrdən istifadə edilir. Bir vətəndaş kimi hesab edirəm ki, yeni kəlmələrin icad edilməsinə heç bir ehtiyac yoxdur. Lüğətimiz o qədər zəngindir ki, bunu qorusaq və gələcək nəsillərə əmanət kimi təhvil versək, bu bizim bu sahədəki ən böyük nailiyyətimiz olacaqdır.

**I –** Mətndə ifadə olunan əsas fikir nədir?

**II –** Mətndə təqdim olunan fikri dəstəkləmək və inkar etmək üçün arqumentlər gətirin.

**III –** Mətnə əsaslanmaqla hansı arqumentin daha çox qəbul olunduğunu və səbəbini qeyd edin.

*Yerinə yetirdiyiniz tapşırıqda dil səhvi və ya stilistik qüsur olsa, bir (1) balınız azalacaq.*

(10) **15. Şagirdin yazı işini oxuyun və aşağıdakı göstərişləri yerinə yetirin:**

**I** – Şagirdin yazı işinə I meyara əsasən bal yazın və mətndən müvafiq nümunə gətirin.

**II** – Şagirdin yazı işinə II meyara əsasən bal yazın və mətndən müvafiq nümunə gətirin.

**III – 1.** Şagirdin yazı işinə III meyara əsasən bal yazın və mətndən müvafiq nümunələr gətirin.

**2.** Hər bir səhvin növünü (orfoqrafik, morfoloji, sintaktik və punktuativ) müəyyən edin.

## Qiymətləndirmə sxemi

| *N* | *Meyarlar* | *Meyarların tərifi* | *Ballar* |
|---|---|---|---|
| **I** | Düşüncəni əsaslandırma (arqumentasiya və sitat) | a) Müzakirə aydındır, arqumentlidir, arqumentlər müvafiq nümunələrə əsaslanır;<br>b) Müzakirə müəyyən qədər arqumentlidir, arqumentlər müvafiq nümunələrə əsaslanmır və faktiki səhvlər buraxılıb;<br>c) Mətn qeyri-adekvat anlaşılıb, müzakirə inandırıcı deyil, nümunələrə qeyri-adekvat istinad edilib. | 2<br>1<br>0 |
| **II** | Leksika və üslub | a) Fikir dəqiq və aydındır, yazı üslubu düzgündür, heç bir leksik səhvə yol verilməmişdir;<br>b) Fikir düzgündür, ancaq söz bazası azdır, yaxud stilistik və/və ya leksik səhvlərin sayı ikidən çox deyil;<br>c) Əsas fikir aydındır, ancaq yazının üslubu düzgün deyil, qeyri-adekvat sözlər var. | 2<br>1<br>0 |
| **III** | Orfoqrafiya, morfologiya, sintaksis və punktuasiya | a) Bu cür səhvlər üçdən çox deyil;<br>b) Bu cür səhvlər altıdan çox deyil;<br>c) Bu cür səhvlər altıdan çoxdur. | 2<br>1<br>0 |

**Şagird üçün təklif olunan tapşırıq:**

Sağlamlıqdan böyük zənginlik yoxdur.

*Arqumentli düşüncə ilə bu fikri inkar edin və ya onunla razılaşın.*

## Şagirdin yazısı:

Dünya zənginliklə doludur. Həmin sərvətlərin ən mühümü insan sağlamlığıdır. Atalarımız demişkən: “Hər şeyin başı sağlamlıqdır”. Belə bir müdrik kəlam da vardır ki, “Pul itirsən, heç nə itirməzsən, vaxt itirsən, çox şey itirərsən, sağlamlığını itirsən, hər şeyi itirərsən”. Sağlamlıq bizə planlarımızı yerinə yetirməyə, həyatın əsas vəzifələrini uğurla həll etməyə, çətinlikləri aradan qaldırmağa kömək edir.

Sağlamlıq kasıb və ya varlı olmasından aslı olmayaraq hər bir insana doğulanda verilən bir hədiyyədir. O həmişə insanın ilk və ən vacib ehtiyyacıdır, onun əmək qabiliyyətini müəyyənləşdirir.

Təəssüf ki, xəstə olanda anlayırıq sağlamlığımızın qədrini, ancaq bəzən çox gec olur. Etdiklərimizin və ya etmədiklərimizin, etinasızlıqlarımızın əvəzini ödəyirik.

Səhhət problemini pulla həll etmək ərəfəsində fikirlər müxtəlifdirlər. Pul hər şeydir – bu aldadıcı bir fikirdir. İnsan itirdiyi sağlamlığını pulun köməyi ilə geri qaytara bilmir.

İş dünyasında uğurun zirvəsinə yüksələn Stiv Cobs xəstə yatağında olarkən demişdir, “Hal-hazırda mən xəstə yatağında uzanmışam və bütün həyatıma nəzər salarkən anlayıram ki, qürur duyduğum bütün təqdirlər və var-dövlət mənə doğru gələn ölümün qarşısında öz əhəmiyyətini itirib.”

Qısaca desək, sağlamlıq həm insanlar, həm də cəmiyyət naminə böyük əhəmiyyət kəsb edir. Sağlamlığın qədrini bilmək üçün xəstə olmaq lazım deyil. Ona görə də həyatımızı gözəl yaşamaq üçün sağlamlığımızın qədrini yaxşı bilməkdə fayda var. Əks halda heç bir işimizi görə bilmərik. Beləliklə, həyatın mənası olmaz.

# AZƏRBAYCAN ƏDƏBİYYATI (20 BAL)

(1) **16. Şifahi xalq ədəbiyyatının hansı janrında epik təhkiyə ilə lirik təqdimat vəhdətdə verilir?**

A) Dastan;

B) Əfsanə;

C) Lətifə;

D) Rəvayət.

(1) **17. Hansı fikir Xaqani Şirvaninin “Gənclərə nəsihət” əsərinə aid edilə *bilməz?***

A) Fitnə elləri dərdə salan bir bəla kimi pislənir.

B) Gəncliyə münasibətdə tənqid rəğbətdən daha üstün yer tutur.

C) Lovğa insanların hörmətdən uzaq olduğu vurğulanır.

D) Nadanların tərifinə aldanmamaq tövsiyə olunur.

(1) **18. Şah İsmayıl Xətayinin "Dəhnamə" poemasında iştirak edən rəmzi obrazlar hansılardır?**

A) Bulud, pərvanə, bülbül, əğyar.

B) Huş, ah, göz yaşı, səba.

C) Pərvanə, göyərçin, bulud, şam.

D) Yurd, boz qurd, su, köpək.

(1) **19. Cümlənin davamı necə yazılsa, fikir doğru olar?**

*Orta dövr Azərbaycan ədəbiyyatında Azərbaycan dilində ...*

A) faciə janrının əsası qoyuldu;

B) ilk lirik və epik əsərlər yazıldı;

C) ilk satirik və dramatik əsərlər yazıldı;

D) roman janrının əsası qoyuldu.

(1) **20. M. Füzulinin “Leyli və Məcnun” poemasındakı Leyli surəti ilə bağlı verilənlərdən hansı doğrudur?**

A) Həyata baxışı valideynləri ilə eynidir.

B) Öz arzu və istəyini anasına belə açıb deyə bilmir.

C) Sevdaya düçar olduğu üçün cəmiyyətdə “dəli” adlandırılır.

D) Yaşadığı cəmiyyətin qaydalarına tabe olmur və çöllərə düşür.

(1) **21. Verilmiş nümunəyə əsasən şeirin janrını müəyyən edin.**

*“Qış günü qışlağı Qıraqbasanın,*

*Gözüdür Aranın, cümlə cahanın,*

*Belə gözəl yerin, gözəl məkanın,*

*Bir gözəl obası, hayıf ki, yoxdur!”*

A) Divani.

B) Gəraylı.

C) Qoşma.

D) Təcnis.

(1) **22. Qasım bəy Zakirin "Durnalar" əsəri haqqında fikirlərdən hansı *səhvdir?***

A) Əsər qoşma janrında yazılmışdır.

B) Əsər sürgündə olarkən qələmə alınmışdır.

C) Şeir məhəbbət mövzusunda yazılmışdır.

D) Şeirdə vətən həsrəti əks olunmuşdur.

(1) **23. Hansı atalar sözü Abbasqulu ağa Bakıxanovun “Hikmətin fəziləti” əsərinin ideyasına daha çox uyğundur?**

A) Artıq tamah baş yarar.

B) Dövlətin ən yaxşısı ağıldır.

C) Yaxşılıq elə, minnət qoyma.

D) Yalan ayaq tutar, yeriməz.

(1) **24. Məhəmməd Füzuli və Mirzə Fətəli Axundzadə üçün ortaq cəhətdir:**

A) Bütün ədəbi növlərdə əsərlər yazması.

B) Lirik növdə zəngin irsinin olması.

C) Povest janrında əsərlər yazması.

D) Yaradıcılığa lirik şeirlə başlaması.

(1) **25.** **Hansı fikir “Koroğlu” və “Kitabi-Dədə Qorqud” dastanları üçün ortaq cəhət sayıla *bilməz?***

A) Cəsarətli qadın obrazlarının mövcud olması.

B) Epik təhkiyə ilə lirik təqdimatın vəhdətdə olması.

C) Qəhrəmanlıq dastanı olması.

D) Vahid baş qəhrəmanın olması.

(1) **26. Cümlənin davamı necə yazılsa, fikir doğru olar?**

*Azərbaycan ədəbiyyatında povest janrının əsasının qoyulduğu əsrdə...*

A) aşıq yaradıcılığı təşəkkül tapmışdır.

B) dastan yaradıcılığının əsası qoyulmuşdur.

C) dramaturgiyanın əsası qoyulmuşdur.

D) realist meyillər müşahidə olunmağa başlamışdır.

(1) **27. Hansı bədii təsvir vasitələrinin hər ikisi aşağıdakı nümunədə istifadə olunmuşdur?**

*“Qışın dondurucu bir günü idi. Soyuq qılınc kimi kəsirdi. Göylər yaşlı adamlar kimi qara çarşaba bürünmüş, dağlar, çöllər ağ kəfənlə örtülmüşdü.”*

A) Epitet, simvol.

B) Metafor, təşbeh.

C) Simvol, metafor.

D) Təşbeh, epitet.

(1) **28.** **“Koroğlu” eposu hansı tarixi hadisə ilə səsləşir?**

A) Cəlalilər üsyanı ilə.

B) Xürrəmilər hərakatı ilə.

C) İran-Rusiya müharibəsi ilə.

D) Slavyanların hücumu ilə.

(1) **29. “Hekayəti-müsyö Jordan həkimi nəbatat və dərviş Məstəli şah cadukünі-məşhur” komediyasında bir-birinə zidd qütblərdə dayanan *əsas* baş qəhrəmanlar hansılardır?**

A) Müsyö Jordan – Məstəli şah.

B) Şahbaz bəy – Hatəmxan ağa.

C) Şərəfnisə – Şahbaz bəy.

D) Hatəmxan ağa – Şəhrəbanu.

(1) **30. H. Cavidin "Ana" dramında nəyə əsasən Səlma ananın ləyaqətli qadın obrazı olduğunu söyləmək mümkündür?**

A) Ləzginin verdiyi bəd xəbər onu sarsıdır.

B) Muradı sona kimi qoruyaraq sözünə əməl edir.

C) Səlimi oğlunu müdafiə edə bilməməkdə günahlandırır.

D) Səlimin xəncəri ilə Muradı öldürmək istəyir.

(1) **31. Ə.Cavadın "Azərbaycan bayrağına" şeirinin məzmunu ilə bağlı doğru fikri müəyyən edin.**

A) Bayraq düşmən üzərində qələbənin təsdiqi kimi təqdim olunmuşdur.

B) Şair Vətəni ana ilə bərabər tutaraq onu bayraq kimi yüksəldir.

C) Şairin bayrağına olan sonsuz sevgisi tərənnüm edilmişdir.

D) Şəhid məzarını örtən bayrağın müqəddəsliyi vurğulanır.

(1) **32. Hansı fikir Çingiz Aytmatovun “Gün var əsrə bərabər” əsərinin (Manqurt hissəsi) məzmununa uyğun *deyil?***

A) Ana oğlu üçün qorxulu səfərə çıxmaqdan çəkinmir, həyatını riskə atır.

B) İnsanın öz keçmişini unutmasının faciəsi Ana obrazı ilə verilmişdir.

C) Juanjuanlar əsirlərlə amansız rəftar edirlər.

D) Naymanlar sülaləsi islam dininə mənsub idilər.

(1) **33.** **“Əkinçi” qəzetinin *əsas məqsədi* nə idi?**

A) Xalqa kənd təsərrüfatının sirlərinin öyrədilməsi.

B) Maarifçi və mütərəqqi ideyaların təbliği.

C) Dövrün eyiblərinin satirik yolla tənqid edilməsi.

D) Dini fanatizm və xurafatla mübarizə.

(1) **34. Hansı fikir Mikayıl Müşfiqin "Yağış yağarkən" əsərinə aid edilə bilər?**

A) Şeirdə həbs həyatının təsiri hiss olunur.

B) Şeirdə repressiya qurbanları xatırlanır.

C) Şeirdə vətənpərvərlik hissləri təbiətə qayğı ilə vəhdətdə verilmişdir.

D) Şeirdə təbiət hadisəsinə insanın münasibəti öz əksini tapmışdır.

(1) **35. Mirzə İbrahimovun "Gələcək gün" romanında qarşı-qarşıya qoyulur:**

A) Azadlıq – kölәlik.

B) Doğmalıq – yadlıq.

C) Sadəlövhlük – hiyləgərlik.

D) Sevgi – nifrət.

# BƏDİİ MƏTNİN DƏRK EDİLMƏSİ (15 BAL)

**Mehdi Hüseynin "Nişan üzüyü" hekayəsini diqqətlə oxuyun və tapşırıqları yerinə yetirin.**

## N i ş a n   ü z ü y ü

Hələ gün çıxmamışdı. Təkdənbir əsən meh, həyətdəki badam ağacının xırdaca yarpaqlarını tərpədirdi və bu yarpaqlar tərpəndikcə, elə bil iki sevgili haradasa gizlənib yavaşcadan pıçıldaşırdı.

Bir az bundan əvvəl samovara od salıb yan tərəfdə oturmuş Əminə xala yarpaqların pıçıltısını eşidirsə də, buna əhəmiyyət vermirdi: onun gözləri yol çəkirdi.

"...Ana! Dünən çox vuruşduq. Qabağımızdakı faşistlərin sayı bizdən beş dəfə çox olardı. Onların pulemyotları yağış kimi güllə yağdırırdı. **1** Mən komandirimizin sol tərəfində durmuşdum. O, bərk yaralandığına baxmayaraq, həmişə bizə ürək-dirək verirdi. Mənə də tez-tez, – Qorxma, Salman, – deyirdi, – gözlə, lap yaxına gələndə atarsan.

Mən əlimdəki qumbaranı hazır tutub düşmənin daha da yaxınlaşmasını gözləyirdim. **2** Mən az qala nəfəs almayıb komandirin əmrini gözləyirdim. Komandir əli ilə "Səbr elə!" işarəsini verə-verə, gözlərini düşmən gələn tərəfdən çəkmirdi. Birdən faşistlər ayağa qalxıb üstümüzə şığıdılar. Mən əlimdəki qumbaranı atdım. Bilmirəm dördümü, beşimi toz-torpağa qarışıb qaldı.

Ana! Mənim gülləm qurtarmışdı. Süngü davası başlandı. **3** Gərək özün burada olub görəydin. Yalan olmasın, hərəmiz bir aslana dönmüşdük. Vuruşurduq, nə vuruşurduq... Faşistlər zərbəmizə dözməyib geri qaçdılar. **4** Ax, ana, bu vaxt pulemyotumun bircə daraq patronu olsaydı, gör onda heç bir faşist də sağ qaçıb qurtula bilərdimi!.."

Əminə xalanın gözləri yol çəkirdi. Oğlunun məktubunu azı yeddi-səkkiz adama oxutdurub tamam əzbərlədiyi halda, bir də təzədən oxutmağa bir adam axtarmaq fikrinə düşdü. Onun xəyalında ancaq bu sözlər dolanırdı: "Bircə daraq patron... Neyləyim?.. Bu iş əlimdən gəlmir, oğul... Yoxsa, bir daraq nədir, lap yüz daraq yollardım. Qalın corab deyil ki, gündə üç cüt toxuyam. Neyləyim?.."

Əminə xala samovarın səsinə fikrindən ayrıldı, tez durub samovarın qapağını götürdü, yanaqlarına dəyən isti buğdan üzü, alnı tərlədi. "Neyləyim, oğul, samovar deyil ki, o dəqiqə çayını dəmləyib hazır eləyim!"

Ananın xəyalından qəribə bir fikir keçdi: “Yox, sənə patron yollamayacağam. Onu hökumətimiz verər. O, heç vaxt sənin darda qalmağına razı olmaz. Mən səndən ötrü qiymətli bir şey saxlamışam. Var-dövlətdən kasıb da olsam, dar gündə düşmənə möhtac olmaram”.

Əminə xala tez çaynikə su aldı, samovarın qapağını yerinə basdı, “sonra yadımdan çıxar” deyə fikirləşib evə girdi.

Divar şkafının lap yuxan gözündən alabəzək bir boğça çıxarıb döşəməyə qoydu; əli titrəyə-titrəyə boğçanı açdı. Burada hər nə desən vardı: ipək, şal, müxtəlif rəngdə qadın corabları, krep-deşin... Hamısını oğlunun nişanlısı üçün saxlamışdı. Boğçadakı şeyləri Əminə xala düz on ildə alıb yığmışdı. Hər dəfə açıb baxanda, ürəyi tel-tel olurdu. Ölməyib o günü görsəydi, heç dərdi olmazdı.

Əminə xala parçaların arasından nə isə götürüb yaylığa bükdü, qoynunda gizlətdi, sonra gəlib samovarı mizin üstünə qoydu. Uşaqlarını səslədi.

– Qalxın, bu qədər də yatmaq olar?

Yayın isti gecəsindən sonra bir qədər sərinləşən havada uşaqlar rahat nəfəs ala-ala yatırdılar. Əminə xalanın zil səsi, onların halına təfavüt etmirdi. Yalnız sonbeşiyi ağzını marçıldatdı, üzünü divara sarı çevirdi. Əminə xala onları çox istəsə də, uşaqlarını ərköyün böyüdən analardan deyildi. Elə-belə çağırıb oyada bilməyəcəyini görəndə, cəld onlara yanaşdı, hərəsinə bir dürtmə ilişdirdi; əlbəttə, bərkdən yox, yavaşcadan. Uşaqlar qalxıb geyindilər. Bir dəqiqədə sual-cavab başlandı:

– Ana, dünən samovarı aparıb fonda vermədin?

– Ana, mis qazanı aparmadın?

– Uşaqsınız, oturun yerinizdə... Onu mən billəm.

– Özün demədin, aparacağam?

– Dedim, amma aparmıram.

– Niyə ki, ana?

Bu suallar verilənə qədər bir az hirsli olan ana xeyli yumşaldı. Əvvəlcə balacalardan biri soruşdu, amma indi ikisi də gözünü ona dirəyib kirpiklərini qırpmadan cavab gözləyirdi.

– Samovardan nə olacaq? Soruşdum, dedilər, ondan cəmi-cümlətanı üç-dörd top gülləsi çıxar. Azdır də... Ayıb deyilmi?.. Nə var, nə var, Əminə arvad fonda dörd top gülləsi verib... Yox aparmıram...

– Eh, ay ana, sən bizi yoldaşlarımızın yanında niyə utandırırsan... Dünən bütün aləmə dedik axı...

Əminə xala yenə hirsləndi:

– Deməyəydiniz...

Əminə xalanın işlədiyi corab arteli fəhlələrinin yığıncağı uzun çəkdi. Çıxışlar qurtarandan sonra kim isə xəbər aldı.

– Bəs Əminə xala müdafiə fonduna bir şey vermir?

Ağız əyənlər oldu:

– Əşi, kasıb arvaddır, nə verəcək...

Ömründə söz alıb danışmayan Əminə xala elə bil bunu gözləyirdi.

O, yerindən partladı.

– Nə olub, məgər kasıbın qeyrəti olmaz? – Başladı, nə başladı. – Mənim toxuduğum corablar həmişə birinci sorta düşüb... Daha mükafat almaqdan yorulmuşam... Kasıb niyə oluram?

– Niyə hirslənirsən, Əminə xala?..

– Hirslənirəm, ona görə ki, haqqım var... Adam danışanda, bir az fikirləşsə, yaxşı olar!..

O, bu sözləri deyə-deyə, əlini qoynuna saldı. Oradan səhər yaylığa bükdüyü şeyi çıxartdı, hələ açıb göstərməmiş, sözünü deyib qurtarmağa çalışdı:

– Dava qurtaranatan hər ay beş günlük məvacibim, bir mis qazan, bir mis samovar... Yaz də, nə durmusan, üzümə niyə baxırsan? Bir də ki... – Yaylıq açıldı.

– Bir də ki, bu üzük... Oğlumun nişan üzüyü... Üç min manat vermişəm... Yaz!

Əminə xalanı yaxşı tanıyan müdir razı olmadı:

– Yox, onu saxla, ağır olar. Axı o, sənin ən qiymətli şeyindir, xala.

İndi artelin bütün fəhlələri bu savadsız, az danışan, yalnız işini görüb o dəqiqə evinə qayıdan, sadə qadına baxırdı, ondan cavab gözləyirdi...

Əminə xala duruxdu, müdirə sərt cavab vermək istəmədi:

– Deyirsən ən qiymətli şey?.. Yox, bundan da qiymətli şeyim var...

– Bundan da qiymətli şey nədir, xala?

Əminə arvadın səsi birdən titrədi, o indi bir ana kimi cavab verdi:

– Oğlum... Ona patron lazımdır... Bildin?..

## Təlimat

**Tapşırığı yerinə yetirmək üçün mətni diqqətlə oxuyun. Suallara mətnin məzmunu tamamilə aydın olduqdan sonra cavab verməyə başlayın.**

**Cavablardan yalnız birini seçin və cavablar vərəqinin müvafiq xanasında X işarəsi ilə qeyd edin.**

(1) **36. İkinci abzasda hansı bədii təsvir vasitəsi işlədilmişdir?**

A) Epitet.

B) Metafor.

C) Metonimiya.

D) Təşbeh.

(1) **37.** *“Onlar sürünə-sürünə qabaqkı dikdirə çıxdılar”* **cümləsi hansı xananın yerinə yazılsa, fikir tamamlanar?**

A) 1.

B) 2.

C) 3.

D) 4.

(1) **38.** *“Var-dövlətdən kasıb da olsam, dar gündə düşmənə möhtac olmaram”* – **bu sitatdan Əminə xalanın hansı xüsusiyyəti özünü büruzə verir?**

A) Fədakarlıq.

B) Qayğıkeşlik.

C) Qürurluluq.

D) Təvazökarlıq.

(1) **39.** *“Ölməyib o günü görsəydi, heç dərdi olmazdı”.* **Bu sözlərdən aydın olur:**

A) Ana övladının ailə həyatı qurmasını arzulayır.

B) Ana öz övladına qovuşacağı günü gözləyir.

C) Hökumət əsgərləri silahla təmin edəcək.

D) Müharibə tezliklə başa çatacaq.

(1) **40. Uyğunluğu müəyyən edin.**

*I – "Bu vaxt pulemyotumun bircə daraq patronu olsaydı, gör onda heç bir faşist də sağ qaçıb qurtula bilərdimi!.."*

*II – "Əminə xala parçaların arasından nə isə götürüb yaylığa bükdü, qoynunda gizlətdi, sonra gəlib samovarı mizin üstünə qoydu".*

*III – "Gərək özün burada olub görəydin".*

A) I – arzu, II – fakt, III – fərziyyə.

B) I – arzu, II – fərziyyə, III – fakt.

C) I – fakt, II – fərziyyə, III – arzu.

D) I – fərziyyə, II – fakt, III – arzu.

(1) **41. Verilənlərdən hansı bədii sualdır?**

A) “Bundan da qiymətli şey nədir, xala?”

B) “Dünən samovarı aparıb fonda vermədin?”

C) “Əminə xala müdafiə fonduna bir şey vermir?”

D) “Nə olub, məgər kasıbın qeyrəti olmaz?”

(1) **42. Ana obrazı ilə bağlı fikirlərdən hansı doğru *deyil?***

A) Ana dəfələrlə oxutduğu məktubu tamam əzbərləmişdi.

B) Ana oğlunun nişanlısı üçün boğça hazırlamışdı.

C) Ana özünün kasıb adlandırılmasını istəmirdi.

D) Ana rahat yatan uşaqları oyatmağa qıymırdı.

(1) **43. Aşağıdakı fikirlərdən hansını hekayəyə aid etmək *olmaz?***

A) Əminə xala öz övladlarına qarşı tələbkar anadır.

B) Əminə xalanı narahat edən yalnız oğlunun taleyidir.

C) Əsərdə Salmanın ailə üzvlərinin vətənpərvərliyi görünür.

D) Əsərdə xalqın müharibə dövründəki həyatından danışılır.

(1) **44. Mətndə hansı suala cavab tapmaq mümkün *deyil?***

A) Əminə xalanın boğçanı düz on il yığmaqda məqsədi nə idi?

B) Niyə Əminə xala yığıncaqda sakit dayana bilmədi?

C) Əminə xalanın işlədiyi arteldə yığıncağın uzun sürməsinin səbəbi nə idi?

D) Niyə Əminə xala samovarı fonda aparmaq istəmirdi?

(1) **45. Mətndə ifadə olunan əsas fikir nədir?**

A) İnsan çalışaraq hər şeyə nail ola bilər.

B) Hər bir kəs başqalarının ləyaqətinə hörmətlə yanaşmalıdır.

C) İnsan üçün ən böyük sərvət ləyaqətdir.

D) Hər bir kəs gələcək nəslin rifahı üçün çalışmalıdır.

(5) **46. Yazı işi:**

Əsərdəki ana obrazını səciyyələndirin.

*Nəzərə alın: 50 sözdən az olan cavab yoxlanılmayacaq!*